*Ü.Mikayılov. "Kollu Koxa" və "Şəppəli" povestlərində yazıçı mühitinin əksi avtobioqrafik cizgilər çərçivəsində // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 57-63.*

UOT: 82-3.512.162

**Ülvi Mikayılov**
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Akademik Zahid Xəlilov küç. 23*
*e-mail: ulviaydin.m@gmail.com*

# "KOLLU KOXA" VƏ "ŞƏPPƏLİ" POVESTLƏRİNDƏ YAZIÇI MÜHİTİNİN ƏKSİ AVTOBİOQRAFİK CİZGİLƏR ÇƏRÇİVƏSİNDƏ

**Xülasə**

Tədqiqatın əvvəlində Azərbaycan yazıçısı İsa Muğannanın yaradıcılığına nəzər salınır. Məlum olduğu kimi İsa Muğanna sovet dövründə yaradıcılıq fəaliyyəti ilə məşğul olsa da, milli şüurun oyanışına təsir, mənəvi dəyərlərin təbliği məsələlərini əsərlərində hər zaman əks etdirmişdir. Yazıçının yaradıcılığında xalqın yaşam tərzi, dövrün gərginliyi zaman-zaman yer almışdır. Nasir dərin düşüncə, elmi idrak və bədii təxəyyülünün gücü ilə müxtəlif tipli xarakterləri bir obraz üzərində cəmləşdirib, mükəmməl surətlər yaratmağı bacarmışdır. Bu üzdən də İsa Muğannanı xarakterlər ustası adlandırmaq haqlı olar.

Ədib "Kollu Koxa" surətini yaratmaqla, öz xarakterindən irəli gələn avtobioqrafik cizgiləri həmin obrazda əks etdirmiş, cəmiyyətdə əqidəsinə sadiq insanların heç də az olmadığını göstərmişdir. Koxa kolxoz sədri Cavanşirə, sovet sədri işləmiş Qılınc Qurbana fikirlərini açıq deməklə öz cəsarətini nümayiş etdirməklə bərabər xalqın çəkdiyi əziyyətdən bəhs etmişdir.

Nasir "Şəppəli" povestində də dövrün çatışmazlıqlarını, sosial problemləri əks etdirmişdir. Şəppəlinin də xarakterində müəllifin xarakterindən doğan avtobioqrafik cizgilər görünməkdədir. Bu baxımdan da əsər qismən avtobioqrafik nümunə kimi dəyərləndirilə bilər. "Kollu Koxa" povestindəki Koxa və Şəppəli əsərində canlandırılmış Şəppəli obrazı xalqın görən gözü və deyilən sözü kimi xarakterizə oluna bilər. Nasir hər iki əsərdə yaşadığı mühitin əksini bədii fikirlərlə canlandırmışdır.

***Açar sözlər:*** *İsa Muğanna, Kollu Koxa, Şəppəli, bədii düşüncə, avtobioqrafizm*

**Giriş**

*XX əsr Azərbaycan ədəbiyyatının üzərinə düşən missiya daha çətin və daha gərgin idi. Ədəbiyyat əsasən gerçək həyat hadisələrini bədii şəkildə əks etdirib, estetik zövq formalaşdıraraq mənəvi dəyərlərin təbliğini həyata keçirirdisə, bu dönəmdə maarifləndirmə və informasiya ötürmək missiyası da ədəbiyyatın üzərinə düşürdü. XX yüzilliyin 70 ili sovet rejiminə təsadüf etdiyindən ədəbiyyat və mətbuat senzura ilə üz-üzə idi. Azad fikir, azad düşüncə məsələsi ədəbiyyatda və mətbuatda təbii şəkildə öz əksini tapa bilmirdi. Bütün bunlarla bərabər milli şüurun, milli düşüncənin oyanıb formalaşmasında yenə də ədəbiyyat əsas rolu oynayırdı. Bu istiqamətdə qələm adamlarının (xüsusən şair və yazıçıların) yazdığı əsərlər (yazılan*

*əsərlərdə milli kimlik məsələsinin əksi, mənəvi dəyərlərin təbliği, cəmiyyətdə gedən proseslərin bədii həlli) böyük təsir qüvvəsinə malik idi. Oxucu yazılan əsərləri oxuyub, yaşadığı hadisələri, cəmiyyətdə gedən prosesləri, demək istədiyi fikri, həmin ədəbi nümunədə gördükdə həm müəyyən qədər təsəlli tapır, həm də əsərə və əsərin müəllifinə onun rəğbəti artırdı. Bu yöndən də gerçək hadisələri əks etdirən ədəbi nümunələrə maraq daha böyük idi.*

Xalq yazıçısı İsa Muğannanın yaradıcılığında dövrün gerçək hadisələri, cəmiyyətdə baş verən proseslər bədii düşüncənin müşayəti ilə daha aydın və koloritli əks olunurdu. İ.Muğannanın qələmə aldığı əsərlər xalqın həyatını göstərməklə bərabər oxucunun demək istədiyi sözü də sanki müəyyən dairələrə çatdırırdı. Bu baxımdan da nasirin əsərləri özünün çox funksiyalılığı ilə də diqqət çəkir. İ.Muğannanın bədii nəsri milli şüurun oyanışına təsir, xalqın taleyini özündə əks etdirmə və milli-mənəvi dəyərlərin yaşadılması baxımından diqqət çəkməkdədir. Yazıçı ilk qələm təcrübəsindən başlayıb sonrakı əsərlərində də mühitinin mənzərəsini bədii fikrin ecazı ilə canlandırmışdır. İsa Muğanna sovet rejiminin yazıçı qələminə çəkdiyi sədləri düşüncəsinin və bədii təxəyyülünün gücü ilə əksər məqamlarda aşırdı. Bu səbəbdən də o, kəskin tənqidlərə məruz qalırdı. Əgər İsa Muğanna çərçivələri aşmadan, rejimin qoyduğu tələblərlə əsərlərini qələmə alsaydı, o zaman onun əsərlərində milli şüurun oyanışı məsələsi bu şəkildə əks oluna bilməzdi. Nasirin milli şüurun təsirinə yönəli fikirləri ədəbi nümunələrdə çox vaxt sətiraltı ifadələrlə əks olunurdu. Bu baxımdan da yazıçı öz taleyindən, yaxınlarının yaşadıqlarından irəli gələn gerçək məqamları avtobioqrafizmlər şəklində əsərlərində canlandırırdı. İsa Muğannanın bədii nəsrində avtobioqrafik obraz yaradılışı bir ənənəyə çevrilmişdir. Bu ənənə müəllifin istər 50-60-cı illərdə, 70-80-ci illərdə istərsə də Azərbaycan müstəqillik qazandıqdan sonra yazdığı əsərlərdə özünü göstərməkdədir. Yazıçı nə qədər tənqidlərə məruz qalsa da, öz düşüncəsinə, iradəsinə, mövqeyinə hər zaman sadiq qalmışdır. Akademik İsa Həbibbəyli yazıçının yaradıcılığı ilə bağlı fikir söyləyərkən bildirir ki, *"İsa Hüseynov əsərləri ilə çətin ideoloji mühit çərçivəsində də ciddi yazıçı sözü deməyin mümkünlüyünü isbat edə bilmişdir"* [4, s. 4].

Məlum olduğu kimi sovet dövründə konfiliktsizlik nəzəriyyəsi ədəbiyyatda hökm sürdüyündən cəmiyyətdə baş verən hadisələri ədəbiyyat müsbət yöndən əks etdirməli idi. İsa Muğanna isə yaşanan hadisələri olduğu kimi bədii təxəyyülünün gücü ilə ədəbiyyat nümunəsinə çevirirdi. Bu səbəbdən də rejim tərəfdarları yazıçının əsərlərini kəskin tənqid edirdilər. İsa Muğannanı böyük yazıçıya çevirən başlıca səbəblərdən biri odur ki, o gerçəkləri daha çox bədii düşüncə ilə vəhdətdə təqdim etməyi bacarırdı. Bədii təxəyyülünün gücü, elmi idrakı, obraz yaratma məharəti İsa Muğannanın qələminin seçkinliyi idi. Bütün bunlarla yanaşı imzasının tanındığı vaxtdan gerçəkliyi oxucuya çatdırmaqla oxucu sevgisini qazanmış, düşüncəsinin və hadisələrə yanaşmasının nəticəsində böyük yazıçı olduğunu göstərmişdi.

Akademik Tofiq Hacıyev, İsa Muğannanı uzaq səfərlər kapitanı kimi xarakterizə edirdi: *"İsa həyatı bütün genişliyi və dərinliyi ilə görə bilir – okean gəmisinin kapitanı belə olmalıdır ki, aysberqlərdən yan keçsin, gəmisini qəzaya uğratmasın. Bu genişlik və dərinlik onun roman və povestlərini ictimai məzmunla təmin edir; ona görə onun qəhrəmanları tarixin mərhələ-mərhələ yetirdiyi tipik insanlardır"* [3, s. 3].

İsa Muğanna uzaqgörən düşüncə ilə alt qatlara endikcə onun yazıçı idrakının işığı və gücü daha da üst pillələrə ucalırdı. Ədibin yaradıcılığı tədqiqata lazımınca cəlb olunmasa da, nüfuzlu və mötəbər alimlər onun yaradıcılığı haqqında fikir bildirmiş və yazılar yazmışdır. Nasir müharibə dövrünün gətirdiyi çətinlikləri insanların müharibədən sonrakı illərdə yaşadığı sosial problemləri əsərlərində ən xırda detalları ilə əks etdirmişdir. Yazıçının qələmi real hadisələri yazdığından, bəzən bu hadisələrdə öz taleyindən cizgiləri də canlandırdığından müəyyən məqamlarda İ.Muğannanın yaşadıqları ilə əsərlərdə baş verən hadisələr oxucu beynində qarışa bilir. Bu baxımdan yazıçı obraz olaraq müəyyən məqamlarda əsərlərində iştirak etmişdir. Əsərləri oxuduqda görmək olur ki, bu ədəbi nümunələri tədqiqata cəlb etdikdə yalnız filoloji baxımdan deyil, psixoloji, sosioloji, fəlsəfi yönlərdən də araşdırma aparmaq mümkündür.

Akademik Nizami Cəfərovun yazıçının yaradıcılığı ilə bağlı qənaəti belədir ki, *"İsa Hüseynovun yazıçı idrakı çox zaman o qədər genişlənir, böyük əhatə dairəsinə malik olur ki, onun əsərlərini yalnız bədii idrak materialı kimi şərh etmək heç nə vermir. Çünki İsa Hüseynov düşüncəsinin miqyası (və tipologiyası!) etibarilə ədəbiyyatdan kənara çıxır, ümumən insanı, ümumən cəmiyyəti araşdırır"* [2, s. 202].

Yazıçı ən kiçik hekayəsində belə daha çox yaşadığı mühiti, kənd həyatını, kənd camaatının yaşam tərzini təsvir edirdi. Hekayələr ilk baxışdan sadə görünsə də, bu ədəbi nümunələrin məzmunu, daşıyacağı məna yükü çox böyükdür. Ədib "Anadil ötən yerdə", "Arx", "Cəbhədən məktub", "Unus", "Küp", "Küllük" və s. hekayələrində daha çox kənd həyatını, doğma kəndi olan Muğanlının təsvirini vermişdir. "Anadil ötən yerdə" hekayəsində atası Mustafa Hüseynovun və dayısı Niyazinin avtobioqrafik surətlərini yaradan yazıçı "Küp" hekayəsində xüsusi ilə Muğanlı kəndindən bəhs edərək hekayənin əvvəlində yazırdı: *"Qatarla şəhərdən bizim Muğanlıya gedənlər çox vaxt Soyuqbulaq stansiyasında düşürdülər. Xüsusən yaz-yay aylarında Soyuqbulaqda düşürdük ki, tezcə özümüzü Qarayazı meşəsinin kölgəliklərinə verək"* [8, s. 381]. Nasir əsərlərində yer adlarını göstərməklə oxucunu coğrafi baxımdan da məlumatlandırmış olur. İsa Muğanna 60-cı illərdən başlayıb qələmə aldığı "Saz", "Tütək səsi", "Quru budaq", "Kollu Koxa" və "Şəppəli" povestlərində yüksək vəzifə sahibləri ilə zəhmətkeş camaatın obrazlarını gerçək hadisələr fonunda bədiiləşdirmişdir.

Müəllifin 1967-ci ildə yazdığı "Kollu Koxa" povestində təbəqələşmənin gətirdiyi mənfiliklər əks olunmuşdur. Povestdə inkişaf edən hadisələr Qaracalar kəndində yaşanmışdır. Müəllif bir kəndin problemləri fonunda cəmiyyətdə olan çatışmazlıqları işıqlandırmağı bacarmışdır. Əsərdə su kanalı çəkməklə məşğul olan Koxa kənd camaatının əksəriyyətinə ləqəblər qoyurdu. Kolxoz sədri Cavanşir Ocaqov (Koxanın qaynı) rayon müşavirəsində iştirak edərkən Qılınc Qurbanla rastlaşır. Qılınc Qurbanla Cavanşirin münasibətləri yaranmış, Qurban kişi Cavanşirə kömək etmək məqsədi ilə onu iş baxımından himayəsinə götürmüşdü. Bu söhbətdən sonra demək olar ki, bütün qapılar Cavanşirin üzünə açılır. Cavanşir Qılınc Qurbanın dəstəyi ilə işini uğurla davam etdirir. Müəyyən bir vaxtdan sonra kolxozun işində çətinliklər yaranır. İsti yay günlərinin birində Qılınc Qurban Qaracalar kəndinə gəlir. Qurban kişi bu gəlişində Koxa ilə qarşılaşır. Koxanın insanlara ləqəb qoşması Qılınc Qurbana da məlum idi. Qurban kişi Koxa ilə söhbətində Koxanı ləqəb qoşmaqdan çəkindirməyə çalışsa da, o yenə də öz fikrində qalır. Koxa millətin adının olmamağından şikayətlənərək, ləqəblərin qoyulmasının səbəbsiz olmadığını bildirirdi. Povest Cavanşirin dilindən nəql olunur. Əsərin gedişində ləqəblərin qoyulma səbəbi aydınlaşır. Koxa Qurban kişini və onun qonağını Cında qarının damına gətirir. Dəhşətli istidən sonra bu sərin dam onlara cənnəti xatırladır. Koxa bu damda da söhbəti davam etdirərək bildirir ki, Qılınc Qurban qılıncı ilə hər zaman əyrilikləri kəsib. İndi Koxa da əyrilikləri öz bildiyi kimi kəsir. *"Koxa – Bu gün mən Qurban kişi səni də, bizim sədri də öz bildiyim sayaq kəsmişəm!"* [7, s. 47]. Qəzəblənən Cavanşir Koxaya deyir: *"Koxa, bu nə deməkdir?! Sən kimsən Qurban kişini, ya məni necə kəsə bilərsən?!"*

*- Sən dillənməsən yaxşıdır cəfalı Cavanşir. Çünki bütün işlərin necə deyərlər mayeyi fəsadı sənsən...*

*- Nə iş, nə mayeyi fəsad canım...*

*Koxa əlini cibinə atdı. İki qatlanmış dəftər vərəqləri çıxartdı. Al bax dedi. Vərəqlərdə uzun bir siyahı vardı. "Dingə Dəmir, Həsir Haşım, Xain Xıdır, Çənə Bağır, Təkayaq Cəbiş"* [7, s. 47- 48]. Koxanın söhbətindən məlum olur ki, bu adamlar ləqəbləri çəkdiyi əziyyət və yaşadıqları həyata görə qazanıblar. Koxa Cavanşirə deyir ki, onları çağırtdır və dərdləri ilə maraqlan. Cında qarının ləqəbinin Cında olmasının səbəbi odur ki, bir vaxt onun evində çörək yeyən uşaqlar, yəni Cavanşir özü də gəlib onunla maraqlanmır. Qarıya atılmış əşya kimi baxırlar. Dəmirə dingə ləqəbinin verilməsinin səbəbi isə həkimə gedə bilməməsi üzündən bir falçının məsləhəti ilə başına dingə qoyub gəzməyi idi. Özlərinə çarə tapmayan insanlar bu kimi ləqəblərlə yaşamağa

möhtac qalırlar. Əsərin sonunda məlum olur ki, Koxa, Cavanşirə də ləqəb qoymuşdu. *"Cavan şir...Cavan şir, boğuq – boğuq təkrar etdi. - Gözəldir! "*

*- Limbuz... Lim-buz... Bəs Limbuz necədi?* [7, s. 51].

Cavanşirə Limbuz ləqəbinin qoyulmasının səbəbi onda idi ki, Qılınc Qurban iclasda olarkən soyuq limonad və buz istəmişdir. Kolxoz sədrləri hamısı qaçıb limonad gətirsələr də, Qurban kişi Cavanşirin gətirdiyi limonadı içmişdi. O gündən də Cavanşirin adı Limbuz Cavanşir olaraq qalır. Koxa Cavanşirə əvvəllər cəfalı Cavanşir deyərdi. Çünki Cavanşir əvvəllər kənd camaatının güzəranı ilə maraqlanır, mövcud problemləri özü də yaşadığından cəfa çəkirdi. Kolxoz sədri olandan sonra isə Qılınc Qurbanın kölgəsində dolanırdı. İ.Muğanna bu əsəri yazmaqla o dövrdə vəzifəli insanların özündən yüksəklərin kölgəsinə sığındığını göstərirdi. Qoyulan ləqəblər insanları cəmiyyətdə bu adlarla tanıdırdı. Yaranan fikir isə yalnız insan haqqında deyil, onun yaşadığı dövr və quruluşla bağlıdır. Bu povest həm də onu göstərir ki, müharibədən sonrakı dövrdə formalist mənzərə yaransa da, nəticə etibarı ilə insanların böyük bir hissəsi sosial və mənəvi problemlərlə üz-üzə qalmışlar.

Yazıçı Koxa obrazını yaratmaqla yenə də avtobioqrafik cizgilərdən istifadə etmişdir. "Kollu Koxa" adlanan obraz kolxoz sədri Cavanşirə və sovet sədri işləmiş Qılınc Qurbana sözünü açıq şəkildə deməyi bacarır. Yüksək vəzifə tutan şəxslərdən Koxanın ehtiyatlanmayıb cəsarət nümayiş etdirməsi obrazın, müəllifin avtobioqrafik xarakter daşıyıcısı olmasına bir işarədir. Məlum olduğu kimi İsa Muğanna "Yanar ürək" və "Doğma və yad adamlar" əsərlərinə görə sovet dövründə partiya iclaslarında sərt tənqid olunmuşdur. İclasda iştirak edən 43 nəfərin böyük əksəriyyəti yazıçını tənqid etmişdir. Sonda Mehdi Hüseyn müəllifə söz verilməsini təklif etdikdə partkom bildirmişdir ki, onun deməyə nə sözü olacaq. Ədib hadisə ilə bağlı avtobioqrafiyasında yazırdı ki,

*"Ayağa qalxıb dedim:*

*- Partkom yoldaş desin görüm, mənim romanımın baş qəhrəmanının adı nədir? Zeynal Xəlil özünü itirdi.*

*- Mmmən oxumamışam, mənim kommunist yoldaşlarım oxuyublar dedi:*

*- Mən belə iclasda oturmaram dedim və qapını şaqqıltı ilə açıb çıxdım"* [6, s. 57-58]. Müəllifin yaratdığı Koxa obrazı da qismən yazıçının avtobioqrafik surəti kimi xarakterizə oluna bilər. Əsərin gedişində Koxanın Cavanşirə olan münasibətinin müsbətdən mənfiyə doğru dəyişməsinin əsas səbəbi də o idi ki, Koxa düzlük tərəfdarı idi. Bu üzdən də Cavanşirin əvvəlcə cəfa çəkdiyini vurğulayır, daha sonra isə yalnız öz vəzifəsinin marağında olduğunu qeyd edir. Bununla da yazıçı Koxa obrazının obyektivliyini də göstərmiş olur.

Xalq şairi Xəlil Rza Ulutürk yazıçının "Kollu Koxa" əsərini oxuduqdan sonra ona məktub ünvanlamışdır: *"Yaratdığın "Kollu Koxa" obrazı zahirən nə qədər namərbut, nataraz, kobud, çopur olsa da daxilən bir o qədər səliqəli, işıqlı, pak, incə və sağlamdır. "Kollu Koxa" mənim nəzərimdə xalq deməkdir. Onun qabarlı əlləri xalqın əlləri, iti, ayıq gözləri xalqın gözləridir. Buna görə də onun nitqi də, işi də qılınc kimi kəskindir"* [10, s. 1]. Xəlil Rzanın da yaradıcılığında xalqın taleyi, milli kimlik məsələsi daim ön mövqedə dayanmışdır. Bu baxımdan da şairlə yazıçını ruh və düşüncə azadlığı birləşdirirdi. İsa Muğannanın yaradıcılığını, xüsusən də "Kollu Koxa" əsərini yüksək dəyərləndirən Xəlil Rza Ulutürk yazıçının sonrakı əsərlərini də yaxından izləmişdir. 1986-cı ildə "İdeal" romanı çap olunduqdan sonra şair əsərlə bağlı "Sən mənə bir silah verdin" adlı iri həcmli poemasını qələmə almışdır. X.R.Ulutürk poemanın əvvəlində yazırdı:

*"Ac bir adam yağla balın isti yuxa dürməyini*
*Necə yeyib nuş elərsə, mən eləcə yedim səni.*

*Səni, yoxsa əsərini? Nə fərqi var... sən əsərsən.*
*Əziz İsa! Həzrət İsa! Sən ədib yox, peyğəmbərsən.*

*Sən mənə bir yaraq verdin, raketlərdən güclü yaraq.*
*Bir cüt sönməz çıraq verdin... gözüm – çıraq, könlüm mayak.*

*Bəxş elədin elə müdrik, elə qüdsi bir kitabı,*
*Öpdüm, sıxdım ürəyimə kitab adlı inqilabı."* [11, s. 920].

Şair poemada "İdeal" romanından bəhs etsədə, bütövlükdə İsa Muğanna düşüncəsinə və qələminin qüdrətinə həsr olunan bu ədəbi nümunə yazıçının yaradıcılığına verilən böyük bir dəyər idi. Bu dəyərin böyüklüyü ondadır ki, möhtəşəm poemanı böyük və dəyərli Xəlil Rza Ulutürk yazmışdır.

İ.Muğannanın birinci dövr yaradıcılığında sosial problemlərlə bağlı ədəbi nümunələr geniş yer tutur və dövrün real həqiqətlərini özündə daşıyır.

Nasir "Şəppəli" povestini yaradıcılığının birinci dövründə qələmə almışdır. Əsərin əsas qəhrəmanı Şəppəli çağrılan Mədəd kişidir. Sovxozun hesabdarı işləyən Mədəd kişinin Şəppəli çağrılmasının səbəbi onda idi ki, hələ cavan yaşlarında onu şəppə (iflic) vurmuşdu. Bu səbəbdən ağzı əyilmişdi. Elə o dönəmdən də onu heç kəs Mədəd yox, Şəppəli deyə çağırırdı. Şəppəlinin dostu Oruc onu bu xəstəlikdən qurtarmaq üçün bir mollanın yanına aparır. Şəppəli mollanın yanına otuz gün gedib-gəlir. Hər gedəndə bir toyuq aparırdı. Şəppəlini 30 gün şapalaqlayan molla 31-ci gün ona gül şirəsinə bənzəyən su verir. Şəppəlinin üzü düzəlir. Şəppəli molladan niyə bu suyu əvvəlcədən vermədiyini soruşduqda isə molla bildirir ki, suyu gələn kimi versə idim, mənə 30 toyuq gətirən deyildin. Povest mahiyyətcə kiçik və bəsit görünsə də, əsərin məzmununda xırda və əhəmiyyətli detallar vardır. Molla ilə Şəppəlinin söhbətindən görünür ki, molla üçün Şəppəlinin sağalmasından daha önəmli onun gətirdiyi toyuqlardır. Yazıçı bu hadisəni qələmə almaqla göstərir ki, cəmiyyətdə sadə adamların kiçik təmənnaları görünən işin bir tərəfidir. Digər mənsəb və söz sahibləri də əksər hallarda müəyyən təmənna gözləyərək iş görürlər. Şəppəlinin dostu Oruc həbs olunduqda Mədəd kişini yenidən şəppə vurur. Dostunun həbsindən sarsılan Şəppəli indi onun oğlu, Bakıda həkim işləyən Məmmə ilə qürur duyur, hər kəsə ondan danışır. Şəppəlinin yanına gələnlər birinci öz halını deyil, doktor Məmmənin halını soruşmasa idilər, Şəppəli həmin adamdan inciyirdi.

Günlərin birində doktor Məmmə Bakıdan rayona gəlir. Şəppəli oğlanı ilk gördükdə xatırlamır:

*"- Sən kimsən, ay oğul?*

*- Yenə tanımadın? – Oğlan güldü. – Ordan bir yaxşı quyruqlu əmlik seç, gəl otur, gedək!*

*- Hara?*

*- Bakıya. Gəlmişəm səni xəstəxanaya aparım"* [9, s. 14].

Doktor Məmmə Şəppəlini xəstəxanada yaxşı müalicə etdirir. Şəppəli ona vurulan B1 və C1 vitaminlərinə zarafatla bəbirlə səbir deyə-deyə müalicəsini tamamlayır. Şəppəli tam sağalıb rayona qayıtdıqdan sonra doktor Məmmə onun dilindən düşməz, kənddə kim bir balaca ağrayardısa, onu Məmmənin yanına göndərərdi. Əsərin gedişində məlum olur ki, mühasib Mursaqulu Bakıdan qayıdarkən doktor Məmmənin rüşvət üstündə işdən çıxarıldığı xəbərini gətirir. Şəppəli bu xəbərə inanmasa da, birbaş Bakıya yollanır və Məmmə ilə görüşüb bir xeyli söhbət etdikdən sonra *"Məmmə, qurbanın olum, mən daha dözə bilmirəm! Başını qaldır, mənə bir kəlmə de!*

*- Mən başa düşə bilmirəm dayı.*

*Şəppəli buna təəccüb elədi:*

*- Nəyi? Nəyi başa düşəmmirsən, a qurbanın olum?*

*- Mənim rüşvət aldığımı indi bilmisən? Dünya-aləm rüşvətlə dolanmırmı, dayı?! Sovet hökuməti nə verir bizə?!"* [9, s. 36].

Doktor Məmmə rüşvət aldığını etiraf etsə də, Şəppəli ona idealı kimi baxdığından Məmmənin atası kimi böhtana düşdüyünə inanır. Povest onu göstərir ki, insanların yaxşı

yaşayan bir qismi rüşvət almasa idi, cah-cəlal içində yaşaya bilməzdi. Bu kimi hadisələr cəmiyyətdə ədalətsizliyin olduğunu, həmin ədalətsizlik nəticəsində böyük sosial sıxıntıların yarandığını sübut edir. Əsərin sonunda Məmmənin rüşvət aldığını bilən Şəppəli buna dözməyərək dünyasını dəyişir. Tədqiqatlarda "Şəppəli" povesti haqqında, demək olar ki, bəhs olunmamışdır. Ədəbiyyatşünas alim S.Muğanna yazır: *"Povestin süjeti ilk baxışdan sadə görünsə də, çözələndikcə mürəkkəbləşir və ümumbəşəri faciəni əks etdirir. Bu faciənin qəhrəmanı Mədəd kişi də ümumbəşəri faciə qəhrəmanına çevrilir. Bu obraz dünya ədəbiyyatı xəzinəsinin nadir incisi sayılan Servantesin Don Kixotu ilə səsləşir. Mənəvi cəhətdən pozulmuş cəmiyyətdə xilaskar cəngavər olmaq arzusu ilə yaşayan Don Kixot nə qədər acınacaqlıdırsa, ətrafındakı xəstələri sağaltmaq xülyası ilə Məmməni ideala çevirən Mədəd kişi – Şəppəlinin də taleyi bir o qədər faciəvidir"* [5, s. 115-116].

"Şəppəli" povesti yazıçının yaradıcılığında sosial problemləri əks etdirən əsər olmaqla yanaşı göstərir ki, o dövrdə də ədalətli, dürüst və düzgünlüyün tərəfdarı olan insanlar heç də az deyildi. Əsərdə "Şəppəli" adlanan Mədəd obrazı müəllifin bütövlükdə avtobioqrafik surəti olmasa da, obrazda İsa Muğannanın xarakterindən avtobioqrafik cizgilər hiss olunmaqdadır. Məlum olduğu kimi İsa Muğanna düzlüyün, ədalətli cəmiyyətin, insanların saf olmasının tərəfdarı idi. Bu fikirləri yazıçının haqqında yazılanlardan, tərcümeyi halından və düşüncə təbliğatçısı olan əsərlərindən duymaq olur. Ədib əsərdə özünün avtobioqrafik surətini tam olaraq yaratmasa da, yenə də yaşadığı mühitin təsvirini əks etdirmişdir. Ustad sənətkarın "Kollu Koxa" və "Şəppəli" povestləri dövrün görünməyən tərəflərini bədii fikir vasitəsi ilə göstərməyə nail olmuşdur. Yazıçı Koxa və Şəppəli obrazlarını yaratmaqla göstərir ki, düzlük tərəfdarı olan insanlar bütün təqiblərə baxmayaraq, sona qədər öz iradəsinə və düşüncəsinə sadiq qalmışdır. Ədibin əsərlərinin mövzusunda yaxınlıq olsa da, həmin mövzular çoxşaxəli yöndən inkişaf etdirilir və obraz yaradılışında nasir müxtəlif xarakterləri ədəbi nümunələrdə əks etdirirdi. Ədəbiyyatşünas alim Sevinc Abasova yazıçının yaradıcılığı ilə bağlı yazır: *"İsa Muğanna nəsrində bədii axtarış, müşahidə ruhu mətləb dərinliyinə söykəndiyi üçün müsbət idealın daşıyıcıları olan insanlar-obrazlar bütövlükdə dövrün, müasir zamanın tipoloji keyfiyyət göstəricisi təsiri bağışlayır"* [ 1, s. 18]. Bu fikirdən də belə aydın olur ki, yazıçı yaratdığı obrazı gerçək həyatdan götürdüyündən geniş müşahidələr aparır, bir obrazın timsalında neçə-neçə xarakteri cəmləşdirib, mükəmməl bir surət ərsəyə gətirir. Bu əsərləri tədqiqata cəlb etdikdən sonra görmək olur ki, insanlar özü ədalətli olduqda qarşısındakı insanı da düzgün bilir. Koxa və Şəppəli obrazları bunun bariz nümunəsidir.

## Nəticə

*Aparılan tədqiqatlardan belə qənaətə gəlmək olur ki, Xalq yazıçısı İsa Muğannanın yaradıcılığında mənəvi dəyərlər, xalqın taleyi, milli şürun oyanışına təsir ön mövqedə dayanmışdır. Ədib sovet rejimində əsərlər yazsa da, milli kimlik məsələsini avtobioqrafik obrazlar fonunda əksər hallarda önə çəkmişdir.*

*Yazıçı "Kollu Koxa" povestində Koxa obrazını ərsəyə gətirməklə xalqın sözünü deyə bilən, zəhmətkeş, işgüzür və iradəli insanların heç də az olmadığını göstərmişdir. Nasir "Kollu Koxa" obrazında özünün xarakterindən irəli gələn avtobioqrafik cizgiləri sərgiləmişdir. İsa Muğanna Şəppəli obrazını yaratmaqla bildirir ki, cəmiyyət yalnız mənfi yöndə inkişaf etmir. Şəppəlinin timsalında müsbət xarakteri olan düzgün insanların da öz düşüncə və fikirləri vardır. Şəppəli surətində də müəyyən məqamlarda müəllifin xarakterinin əksi olan avtobioqrafik nüanslar vardır.*

**Ədəbiyyat siyahısı:**

1. Abasova, S.A. İsa Muğanna nəsrinin aktual problemləri haqqında // Bakı: Yazıçı xüsusi buraxılış, – 2008. № 8. – s. 18.
2. Cəfərov, N.Q. Seçilmiş əsərləri: [5 cilddə] / N.Cəfərov. – Bakı: Elm, c. 2. – 2007. – 352 s.
3. Hacıyev, T.İ. Uzaq səfərlər kapitanı // Ədəbiyyat qəzeti. – 2008, 6 iyun. – s. 3.
4. Həbibbəyli, İ.Ə. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya / Ölümdən sonrakı həyat // Bakı: Hədəf nəşrləri, – 2014. – s. 3 – 7.
5. Hüseynova, S.İ. İsa Hüseynovun povestləri: / Filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2000. – 136 s.
6. Muğanna, İ.M. Həyatımdan səhifələr (İsa Muğanna xatirələrdə) / İ.Muğanna. – Bakı: Xan, – 2018. – 144 s.
7. Muğanna, İ.M. Kollu Koxa / İ. Muğanna. – Bakı: Hədəf nəşrləri, – 2015. – 144 s.
8. Muğanna, İ.M. Seçilmiş əsərləri, [ 6 cilddə] / İ.Muğanna. – Bakı: Avrasiya press, – c. 2. – 2009. – 432 s.
9. Muğanna, İ.M. Şəppəli / İ.Muğanna. – Bakı: Hədəf nəşrləri, – 2015. – 128 s.
10. Ulutürk X.R. "Kollu Koxa" və "Məhşər" romanı haqqında mülahizələr // Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Fond № 67, siyahı № 2, iş № 164, vərəq – 1.
11. Ulutürk X.R. Mən onsuzda əbədiyəm / X.Ulutürk. – Bakı: Gənclik, – 2003. – 1054 s.

**Ulvi Mikayilov**

**The reflection of the writer's environment in the naratives "Kollu Kokha" and "Shappeli" in the framework of autobiographical lines**

At the beginning of the study, Azerbaijani writer Isa Mughanna's work is reviewed. As it is known, Isa Mughanna was engaged in creative activities during the Soviet period, but he always reflected the impact of the awakening of national consciousness and the propagation of moral values in his works. People's way of life and the tension of the time took place in the writer's work from time to time. With the power of his deep thinking, scientific understanding and artistic imagination, the prosaist concentrated various types of characters on one image and managed to create perfect portrayals. From this point of view, it is right to call Isa Mughanna a master of characters.

By creating the image of "Kollu Kokha", the man of letters reflected the autobiographical features of his character in that image, and showed that there are not at all few people who are loyal to his beliefs in the society. Javanshir, the chairman of the collective-farm Kohka, showed his courage to the former Soviet chairman Gilinj Gurbanov by openly expressing his thoughts and at the same time talked about the suffering of the people.

The prosaist also reflected the shortcomings and social problems of the time in the "Shappeli" narrative. The autobiographical features born from the author's character are visible in Shappali's character too. From this point of view, the work can be evaluated as a partially autobiographical example. The character of Shappeli in the narrative "Shappeli" and the character of Kokha in the narrative "Kollu Kokha" can be characterized as the seeing eye and spoken word of the people. The prosaist revived the reflection of the environment he lived in with artistic ideas in both of his works.

***Keywords:*** *Isa Mughanna, Kollu Kokha, Shappeli, artistic thought, autobiographism*

Filologiya üzrə elmlər doktoru, professor
**Vaqif Sultanlı** tərəfindən çapa tövsiyə olunmuşdur.